UOT 159.9

***Nicat Ramiz oğlu Әliyev***
*fәlsәfә doktoru proqramı üzrә* dissertant
*Azәrbaycan Respublikası Tәhsil İnstitutunun dissertantı*

# YENİYETMӘLİK YAŞ DÖVRÜNDӘ QARŞILIQLI MÜNASİBӘTLӘRӘ TӘSİR EDӘN PSİXOLOJİ AMİLLӘR

***Ниджат Рамиз оглы Алиев***
*диссертант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА ВЗАИМООТНОШЕНИЯ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

***Nijat Ramiz Aliyev***
*doctorial student in the program of doctor of philosophy*
*Institute of Education of the Republic of Azerbaijan*

# PSYCHOLOGİCAL FACTORS AFFECTİNG İNTERRELATİONS İN ADOLESCENCE PERİOD

**Xülasә.** Mәqalәdә yeniyetmәnin psixoloji xüsusiyyәtlәri, şәxsiyyәtin formalaşmasına tәsir edәn psixoloji amillәr araşdırılır. Әvvәlki vә sonrakı yaş xüsusiyyәtlәrini özündә birlәşdirәn yeniyetmәlik yaş dövrünün digәrlәrindәn fәrqli olduğu göstәrilir. Bu yaş dövründә münasibәtlәr, qarşılıqlı münasibәtlәr, ünsiyyәt yeniyetmәlәrin sosiallaşmasının әsasını tәşkil edir. Yeniyetmәlәrin özünә inamı ilә böyüklәrin onlara münasibәti arasında ziddiyyәt yaranır. Yeniyetmәlәrin yaşıdları ilә qarşılıqlı münasibәtlәrә üstünlük vermәsinin sosial-psixoloji problemlәri tәhlil olunur.

***Açar sözlәr:*** *şәxsiyyәtlәrarası münasibәtlәr, yeniyetmә kollektivi, müәllim-şagird münasibәtlәri, motivasiya, şәxsiyyәt*

**Резюме.** В статье исследуются психологические особенности подросткового возраста, психологические факторы, влияющие на формирование личности. Показано, что период отрочества, сочетающий в себе черты предыдущего и последующего возрастов, отличается от других. В этом возрасте отношения, взаимодействие, общение - основа социализации подростков. Возникает противоречие между уверенностью в себе подростков и отношением к ним взрослых. Анализируются социально-психологические проблемы предпочтения подростков взаимодействию со сверстниками.

***Ключевые слова:*** *межличностные отношения, подростковый коллектив, отношения учитель-ученик, мотивация, личность*

**Summary.** The article examines the psychological characteristics of adolescence, psychological factors affecting the formation of personality. It is shown that the period of adolescence, which combines the features of the previous and subsequent ages, differs from others. At this age, relationships, interaction, communication are the basis of the socialization of adolescents. A contradiction arises between the self-confidence of adolescents and the attitude of adults towards them. The socio-psychological problems of adolescents' preference for interaction with peers are analyzed.

**Key words:** *interpersonal relationship, teenagers collective, teacher-student relation, motivation, personality*

Yeniyetmәlik yaş dövrü ontogenetik inkişafın mühüm mәrhәlәsi olmaqla sonrakı yaş dövrünün inkişafında әhәmiyyәtli rol oynayır. Bu yaş dövrünü sadәcә inkişafın bir mәrhәlәsi, uşaqlıqla ilk gәnclik yaşı arasındakı mәrhәlә kimi yox, psixi inkişafın, şәxsiyyәtin formalaş-

masının mühüm mərhələsi kimi nəzərdən keçirmək lazımdır. Məhz yeniyetməlik yaş dövründə fəal şəkildə böyüklərin həyatına daxil olmaq, öz həyati planlarını qurmaq prosesi və istəyi başlayır. O, özündə varlıq olmaq mərhələsini başa vurur. Bununla yanaşı, özü üçün varlıq olmaq imkanı qazanmır.

Yeniyetmə keyfiyyətcə yeni sosial mövqeyə daxil olur və bunun nəticəsində onun özünə, öz "Mən"inə, ətrafdakı insanlara, valideynlərə, müəllimlərə, yaşıdlarına münasibəti formalaşır. Yeniyetməlik yaş dövründə kəskin şəkildə fiziki, anatomik-fizioloji dəyişiklik baş verir. Bu dövr həm də cinsi yetişkənliyin ikinci mərhələsi hesab olunur. Bununla yanaşı, şəxsiyyətin sosiallaşması və cəmiyyətə adaptasiya prosesi başlayır ki, bu da yeniyetmənin daha çox sosial varlıq olmasını şərtləndirir. Psixoloqlar (Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, A.V. Petrovski və b.) göstərirlər ki, yeniyetmənin qarşılıqlı münasibətlərini, şəxsiyyət kimi formalaşmasını digər yaş dövrlərindən təcrid olunmuş şəkildə təhlil etmək doğru olmazdı. Onun daha aydın dərk olunması üçün psixi inkişafın, şəxsiyyətin formalaşmasının vacib bir mərhələsi kimi nəzərdən keçirilməsi lazımdır.

Şəxsiyyətin sosiallaşması, fərdi xüsusiyyətlərin və dəyərlər sisteminin nəzərə alınması sosial dərketməni zəruri edir. Özünüdərk isə qarşılıqlı münasibət və ünsiyyətdən çox asılıdır. Sosial adaptasiya prosesində subyektiv amillərin rolu artır. Bu isə qarşılıqlı münasibətlər zəminində reallaşır.

Yeniyetməlik yaş dövrü üçün daha xarakterik olan yaşıdlarla ünsiyyət və münasibətlərin digər yaş dövrləri ilə müqayisədə daha çox və daha sıx olmasıdır. Eyni zamanda bu yaş dövründə yaşlılarla, valideyn və müəllimlərlə münasibətdə bir sıra problemlərin meydana çıxmasıdır. Burada ilk və vacib səbəb yeniyetmənin özünü böyük, böyüklərin isə onu hələ də uşaq kimi qəbul etməsindən yaranır.

Yeniyetmənin qarşılıqlı münasibətləri dedikdə ilk növbədə onun uzun müddət emosional və mənəvi bağlılığı olan, onun inkişaf və davranışına təsir edən insanlar və qruplar nəzərdə tutulur. Qarşılıqlı münasibətlər sistemində hər bir yeniyetmənin iyerarxik statusu formalaşır ki, bu da şəxsiyyətin formalaşmasında mühüm rol oynayır. Psixoloqlar münasibəti insanın müəyyən bir obyektə, predmetə verdiyi fərqli reaksiya kimi xarakterizə edir və onu iki qrupa: pozitiv və ya neqativ qruplara ayırırlar. Pozitiv və neqativ münasibət sadə instinktlərdən, bioloji tələbatdan başlayıb, sosial tələbatları, baş verən keyfiyyət dəyişikliklərini əhatə edir.

İlk dövrdə yeniyetmələrdə münasibətlər qeyri-müəyyən xarakter daşıyır. Sonrakı mərhələdə emosional münasibət üstünlük təşkil edir. Məlumdur ki, münasibətlər maraqlarla sıx bağlıdır. Maraqlar daha çox fərdi xarakter daşıyır. Yeniyetmələr demək olar ki, hər şeylə maraqlanırlar. Maraqların çoxluğu isə sistemsizliyə, pərakəndəliyə səbəb olur. V.A. Krutetski yazır: "Aktiv şəkildə hər şeylə maraqlanmaq, acgözlüklə daha çox məlumatlı olmaq istəyi sonda ola bilsin ki, maraqların pərakəndəliyinə, davamsızlığına gətirib çıxarsın" (4,s. 291).

Münasibətlərin bir forması da təlim fəaliyyəti ilə bağlıdır. Bu, insanın fərdi şəkildə öz fəaliyyətinə məsuliyyətli münasibəti olmaqla əxlaqi-hüquqi münasibət adlanır. Təlimə münasibət insanların qarşılıqlı münasibətləri əsasında formalaşır. Bura valideynlərin, müəllimlərin təsiri ilə yaranan borc, vicdan və s. hisslər əsasında kompleks tələblərə uyğun formalaşan daxili mövqe aiddir.

Şəxsiyyətin əxlaqi keyfiyyətləri yalnız digər insanların tələbi ilə deyil, həm də nümunələr əsasında formalaşır. Bu, daxili proses nəticəsində təlimə münasibət yaranır və fərdi xarakter daşıyır. Uyğun olaraq, etik qiymətləndirmənin əsasında və onunla əlaqədar olaraq özünə və başqalarına qarşı tələbkarlıq və ya tələbkar münasibət formalaşır. Buradan da başqalarına qarşı etik münasibətin xüsusi forması: bəyənmək, xoşlamaq, laqeydlik və ya qəzəb, nifrət etmək yaranır. Bunlar həyat və fəaliyyətin bütün sahələrində, xüsusilə məktəb həyatında, şagird-şagird, şagird-müəllim münasibətlərində öz əksini tapır.

Psixoloqlar (Ə.Ə. Əlizadə, Ə.S. Bayramov, M.Ə. Həmzəyev, V.N. Myasişev və b.) göstərirlər ki, psixi proseslərlə qarşılıqlı münasibətlər arasında bağlılıq var. Onların sırasında diqqət və iradi keyfiyyətlər xüsusilə mühüm yer tutur. Yeniyetmənin iradi keyfiyyətləri onda emosional münasibətin formalaşmasına təsir edir. Eyni zamanda emosional münasibətdən asılı olaraq yeniyetmə passiv, yaxud da aktiv

mövqe tutur. Psixoloji tədqiqatlar müəyyənləşdirir ki, münasibət xarakterə təsir edir, tədricən onun formalaşmasında mühüm rol oynayır. Münasibət, qarşılıqlı münasibət ikili xarakter daşıyır və qrup daxilində reallaşır. Bura eyni zamanda şəxsi münasibətlər də daxildir. Psixoloqlar münasibətləri işgüzar və şəxsi münasibətlərə ayırırlar. Məhz bu səbəbdən münasibətlər seçicilik xarakteri daşıyır və nəticədə bəzi adamlara simpatiya, digərlərinə antipatiya, başqalarına isə laqeyd münasibət formalaşır.

O da məlumdur ki, yeniyetmələrin dəyərlərlə bağlı öz təsəvvür və münasibətləri vardır. Bunlar isə adətən böyüklərin təsiri ilə yaranır, ünsiyyət tələbatının ödənilməsinə xidmət edir. O da məlumdur ki, mənəvi təsəvvürlər yalnız ünsiyyət və fəaliyyət prosesində öz təsdiqini tapır. Yeniyetməlik yaş dövründə qarşılıqlı münasibətlərə bir sıra amillər təsir göstərir. Bura yeniyetmənin qrupdakı mövqeyi, temperamenti, xarakter xüsusiyyətləri, təlim nailiyyətləri, xarici görünüşü və s. daxildir. Yeniyetmələrin qarşılıqlı münasibətlər sistemində sosial status vacib şərtlərdəndir. Yeniyetmənin qrupdakı mövqeyi, qrup üzvlərinin qəbul edib bəyəndiyi dəyərlər sosial statusu şərtləndirir. E.V.Andrienko yazır: "Sosiometrik status qrup üzvlərinin həmin yeniyetməyə pozitiv və ya neqativ münasibəti əsasında formalaşır və buna uyğun olaraq onun qrupda statusu ya aşağı, yaxud da yuxarı olur. Qrup üzvlərinin statusuna uyğun olaraq qrupda statusa görə iyerarxiya formalaşır" (3,s.174). Onu da qeyd etmək lazımdır ki, qrupda yeniyetmənin sosial statusu bir tərəfdən qrupun xüsusiyyətləri ilə bağlıdırsa, digər tərəfdən də yeniyetmənin şəxsi keyfiyyətlərindən asılıdır.

Bəzən yeniyetmələrin qarşılıqlı münasibətlərində yaranan gərginlik qrup normaları ilə ayrı-ayrı üzvlərin düşüncə, davranış və mövqe fərqindən yaranır. Ola bilsin ki, yeniyetmənin pozitiv düşüncəsi, münasibətləri yaşıdları tərəfindən düzgün başa düşülməsin. Hətta həmin yeniyetmə qrupda autsayderlər sırasına düşə bilər. Bunun isə səbəbləri çoxdur. Bura şagirdin qaydaları, normaları bilməməsi, normalara əhəmiyyət verməməsi və ya bu normaları qəbul etməməsi səbəb ola bilər. Yeniyetmələrin yaşıdlarına, eləcə də böyüklərə münasibəti cəmiyyət həyatında baş verən proseslərdən, ailə mühitindən, özünün şəxsi keyfiyyətlərindən də asılıdır. Başqa sözlə, sosial münasibətlər həm də qarşılıqlı münasibətlərdə öz əksini tapır.Qarşılıqlı münasibətlər çoxşaxəlidir. Bu, özünü pedaqoji prosesdə daha aydın şəkildə əks etdirir. Bura şagird-şagird, müəllim-şagird münasibətləri daxildir. Hətta bir çox hallarda müəllim-şagird münasibətləri müəllim-valideyn münasibətlərinə təsir göstərir. Ən başlıca cəhət isə ondan ibarətdir ki, valideynlər bir tərəfdən şagirdləri yerli-yersiz müdafiə etməklə, digər tərəfdən hədsiz-hüdudsuz emosional söhbətlərlə onların müəllim haqqında təsəvvürlərini "qara boyalarla" dəyişdirir və onların müəllimlərə münasibətini daha da kəskinləşdirir.

Psixoloqlar son dövrlərdə sosial, iqtisadi vəziyyətlə bağlı olaraq uşaq və yeniyetmələrin davranışında sosial normaların daha çox pozulduğunu göstərirlər. "Mənəvi boşluq, həyəcanlanmanın artması, aqressivlik, qəddarlıq onların davranışında təzahür edir" (5, s. 3).

Yeniyetmələrdə aqressivliyin, qəddarlığın, yüksək həyəcanlılığın artması, onun davamlı xarakter alması "küçə qrupları"nın yaranmasına səbəb olur. Bunun çoxsaylı səbəbləri var. Başlıca olanı isə ailədə valideynlərin onları başa düşməmələrindən ibarətdir. Burada yeniyetməlik yaş dövrünün psixoloji xüsusiyyətləri də az rol oynamır. Adətən yeniyetmələr kobudluğa, yaşlılarla qarşıdurmaya, özünümüdafiə mövqeyi tutmağa meylli olurlar. O da maraqlıdır ki, adətən sinif kollektivində yüksək mövqe tuta bilməyən yeniyetmələr "küçə qrupları"nda lider olurlar.

Bu yaş dövründə diqqəti cəlb edən məsələlərdən biri də yaşıdlar arasında münasibətin pozulması ilə əlaqədardır. Yeniyetmə kollektivi və ya qrupu adətən ümumi olanlarla yanaşı, hər bir üzvün də qarşısında müəyyən vəzifə qoyur. Yeniyetmə isə öz növbəsində bu tələblərə əməl etməlidir. Sinif kollektivi və yaşıdlar qrupu yeniyetmənin özünüreallaşdırması, özünütəsdiqi üçün məkandır. O, məhz bu qrupda özünə müdafiə, himayəçi tapır. Eyni zamanda onlar qrupun daxili qaydalarına tabe olmalıdırlar. Əgər müxtəlif səbəblərdən yeniyetmə yaşıdlarının nüfuzunu qazana bilmirsə, onda yaşıdları ona qarşı çıxır, hətta fiziki cəza tətbiq edirlər. Bəzən yeniyetmə digər yaşıdlarından fərqli xüsusiyyətlərə malik olur. O, bundan həyəcan keçirir. Belə olduqda onda tədricən tənhalıq hissi yaranır. Əgər yeniyetmə öz sosial statusu ilə barışmayıb onu

dəyişdirmək, yaxşılaşdırmaq istəyirsə, digər bir vasitə ilə özünü təsdiq etməyə çalışır. Lakin çox az hallarda yeniyetmə təcrid vəziyyətində qalır. Çünki hər bir yeniyetmənin hansısa müsbət cəhəti olur və o, bundan istifadə etməyə çalışır. Müəllimlər də bundan istifadə edərək yeniyetmələr arasında qarşılıqlı münasibətləri tənzimləyə bilərlər. Yeniyetmələrin yaşıdları qrupunda emosional rahatlığı, sərbəstliyi o zaman reallaşır ki, burada qarşılıqlı ünsiyyət və simpatiya olsun. Əgər qarşılıqlı münasibətlərdə problem varsa, onda yeniyetmə ünsiyyət qurmaqda çətinlik çəkir və emosional bağlılıq yox olur.

Müşahidələr göstərir ki, bəzən yeniyetmənin oxşar davranışı, şəxsi keyfiyyətləri bir qrupda bəyənilir, digər qrupda isə qəbul olunmur. Bu, qruplar arasındakı sosial norma və standartlardan irəli gəlir. Ola bilsin ki, bir məktəbdə yüksək sosial statusa malik olan şagird digər məktəbdə outsayder olsun. Hətta eyni məktəbin bir sinfindən digərinə keçdikdə də bu baş verə bilər. Yaxşı oxumaq, yaşıdları ilə münasibətdə prinsipiallıq ola bilsin ki, bir sinifdə müsbət, digərində mənfi keyfiyyət sayılsın. Deməli, yeniyetmənin kollektivdəki mövqeyi həm onun şəxsi keyfiyyətlərindən, həm də kollektivin sosial normalarından asılıdır. Göründüyü kimi, yeniyetmələrin qarşılıqlı münasibətləri, yaşıdları ilə ünsiyyəti müsbət və ya uğursuz ola bilər. Yeniyetmənin kollektivdə qeyri-münasib mövqeyi onu son dərəcə narahat edir. Belədə özünütəsdiq üçün başqa məkan axtarır. Belədə valideyn və müəllimlər yeniyetməyə qarşı daha diqqətli olmalıdırlar. Hətta həm yaşıdları, həm də böyüklər tərəfindən başa düşülməyən yeniyetmə intihara cəhd edə bilər.

Bir çox hallarda əvvəlki yaş dövründə qaydaları pozmayan uşaq yeniyetməlik yaş dövründə intizamsız olur, qaydalara əməl etmək istəmir. Belədə həm valideynlər, həm də müəllimlər təəccüblənirlər. Yeniyetmə özü də təəccüblənir ki, böyüklər niyə onu başa düşmür. Bunun psixoloji səbəbi belədir ki, yeniyetmə özünü, ətrafdakıları dərk etməyə çalışır. O, özünü bir çox sahələrdə sınamaq istəyir. Valideyn və müəllimlər isə əvvəlki sözəbaxan uşağı görmək istəyirlər. Belədə tərəflər arasında anlaşılmazlıq, konflikt, bəzən də nifrət hissi baş verir. Belə olduqda yeniyetmə özünütəsdiq üçün yaşıdları qrupuna daxil olmaq, qaydaları pozmaq yolunu tutur. Bununla da öz "Mən"lərinin təsdiqinə, öz varlıqlarının sübutuna hətta onun böyüklər tərəfindən qəbul olunmasına çalışırlar. Yeniyetmə qarşılıqlı münasibətlərə olan tələbatını ödəmək üçün məktəbdənkənar ünsiyyət və fəaliyyətə can atır. Öz tələbatını reallaşdırmaq üçün yaşıdları olan qrupa daxil olur. Bunlar bir qayda olaraq "küçə qrupları" adlanır. Bu qrupdan narahat olan valideyn və müəllimlər müxtəlif vasitələrlə onun qarşısını almağa çalışırlar. Amma onu da qəbul etmək la-zımdır ki, bu hal heç də həmişə özünü doğrultmur. Bu, yeniyetmələrdə daha kəskin etirazın və müqavimətin yaranmasına səbəb olur. Buradan belə bir nəticə çıxarmaq olar ki, bu qrupların qarşısını sərt tədbirlərlə almaq yox, onlarla birlikdə olmaq daha faydalıdır. Bunun üçün məktəbin özünün müxtəlif dərnəklər yaratması, onların işində müəllimlərin iştirak etməsi daha səmərəli yoldur. Lakin elə etmək lazımdır ki, bu prosesdə yeniyetmələrin təşəbbüskarlığının, yaradıcılığının qarşısı alınmasın. İşin belə təşkili yeniyetmə şəxsiyyətinin formalaşmasının mühüm vasitələrindən biri kimi qəbul edilə bilər.

Yeniyetməlik yaş dövrünün xarakterik xüsusiyyətlərindən biri də özünütəsdiqlə bağlıdır. Lakin o da məlumdur ki, yeniyetmə heç də həmişə düzgün qərar qəbul edə bilmir. Hesab edir ki, güzəştə getməmək iradəlilik, haqlı olmadıqda belə öz dediyinin üstündə təkid etmək özünütəsdiq deməkdir. Belə vəziyyətdə müəllim və valideynlər səbirlə, inandırıcı şəkildə nəyin doğru, nəyin səhv olduğunu yeniyetməyə izah etməlidirlər. Yeniyetməlik yaş dövrünün xarakterik xüsusiyyətlərindən biri də onlarda yaşlılıq hissinin başlanması ilə əlaqədardır. Lakin bu hiss birdən-birə yaranmır. Yeniyetmə hiss edir ki, artıq onun fiziki gücü çoxalır, bilik və bacarığı artır. Eyni zamanda yeniyetməlik yaş dövründə cinsi yetişkənliyin ikinci mərhələsi başlayır. Artıq oğlanlar kişi, qızlar qadınlıq keyfiyyətlərinə yiyələnməyə başlayırlar. Bu isə həm psixikada, həm ünsiyyətdə, həm də münasibətlər sistemində öz əksini tapır. Hətta bir çox hallarda yeniyetmə özü özünü başa düşə bilmir. Hesab edirlər ki, artıq uşaq deyillər. Böyüklər də onlarla hesablaşmalıdırlar. Böyüklər isə bir qayda olaraq onlara uşaq gözü ilə baxırlar. Belə fərqli yanaşma sonda konfliktə səbəb olur.

Yeniyetmə hesab edir ki, artıq o böyüyüb və böyüklər bunu nəzərə almalıdırlar. Valideyn və müəllimlər onların müstəqilliyinə, sərbəstliyinə hörmətlə yanaşmalıdırlar. Belədə böyüklərin qiymətləndirməsi ilə yeniyetmələrin özünüqiymətləndirməsi arasında ziddiyyət yaranır. Bu vəziyyəti yeniyetmə başa düşə bilmir və buna kəskin reaksiya verir.

Valideyn və müəllimlər bu prosesi təbii qarşılamalıdırlar. Bunun qarşısını almaq yox, düzgün istiqamətə yönəltmək lazımdır. Lakin müəllim və valideynlər eyni zamanda yeniyetmənin bütün istəklərini yerinə yetirməməlidirlər. Belədə yeniyetmənin eqoist istəyi getdikcə artır və onda xudpəsəndlik yaranır. Başqa sözlə hə və yox, razılaşmaq və razılaşmamaq arasında mütənasiblik gözlənilməlidir. Yuxarıda göstərilən və göstərilməyən amillər kompleks şəkildə yeniyetmənin davranış və ünsiyyətini, münasibətlər sistemini formalaşdırır. Yeniyetmə şəxsiyyətinin formalaşması və inkişafı da bu amillərin təsiri altında baş verir. Müəllim və valideynlər yaş xüsusiyyətlərindən irəli gələn bu cəhətlərə diqqət yetirdikdə, nəzərə aldıqda yeniyetmə şəxsiyyəti düzgün istiqamətdə formalaşır.

**Problemin aktuallığı.** Yeniyetmə şəxsiyyətinin formalaşdırılması bütün zamanlarda istər dövlətin, istərsə də psixoloq və pedaqoqların diqqət mərkəzində olmuşdur. Lakin bununla belə alimlər arasında problemə fərqli yanaşmalar həmişə olmuş və olmaqda davam edir. Bu da təbiidir. Çünki ictimai, iqtisadi, siyasi, mədəni inkişafdan asılı olaraq şəxsiyyətin formalaşmasına münasibət də dəyişir. Qarşılıqlı münasibət və ünsiyyət cəmiyyətin tələblərinə uyğunlaşdırılır. Yeniyetmələrin yaşıdları və yaşlılarla qarşılıqlı münasibətlərinin araşdırılması müasir dövrdə də mühüm aktuallıq kəsb edir.

**Problemin yeniliyi.** Məqalədə yeniyetmə şəxsiyyətinin formalaşdırılması qarşılıqlı münasibətlər və ünsiyyət aspektində araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, bu materialdan müəllimlər təlim-tərbiyə işinin təşkilində, yeniyetmə şəxsiyyətinin formalaşdırılmasında, ünsiyyət və münasibətlərin qurulmasında istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya. I kitab. / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. -Bakı: ADPU, -2010, -320 s.
2. Əliyeva, H.İ. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu / H.İ. Əliyeva. -Bakı: Elm və təhsil, -2009. -162 s.
3. Андриенко, Е.В. Социальная психология / Е.В. Андриенко. -Москва: -Академия, -2000. -264 с.
4. Крутецкий, В.А. Психология / В.А. Крутецкий. –Москва: - Просвещение, -1980. -352 с.
5. Семенюк, Л.М. Психологические особенности агрессивного поведения подростков и условия его коррекция / Л.М. Семенюк. -М.: - Флинта, -1998, -96 с.

.

**E-mail:** nejataliyev@yahoo.com

**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.* - **Ü.A. Əfəndiyeva**
*psixol.ü.fəls.dok., dos.* - **N.T. Rzayeva**

**Redaksiyaya daxil olub:**10.06.2021